# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

03 (121) 19 fevral 2019-cu il İctimai-siyasi qəzet


## İlham Əliyev Müdafiə Nazirliyinin Beyləqan rayonu ərazisində yeni inşa edilmiş “N” saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olub

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev fevralın 13-də Müdafiə Nazirliyinin Beyləqan rayonu ərazisində yeni inşa edilmiş “N” saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olub.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdilər.

Azərbaycanın iqtisadi inkişafı Silahlı Qüvvələrin də müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində mühüm rol oynayıb. Təbii ki, güclü ordunun yaradılması həm də güclü hərbi-sənaye kompleksinin mövcudluğu ilə şərtlənir. Bu məsələyə vaxtında lazımi diqqət göstərən Prezident İlham Əliyevin rəhbərliyi ilə 2005-ci ildə ölkədə müdafiə sənayesinin əsasının qoyulması və bu sahədə istehsalyönümlü müəssisələrin fəaliyyətə başlaması Azərbaycan Ordusunun maddi-texniki bazasını daha da gücləndirib. 2019-cu ildə Prezident İlham Əliyevin Müdafiə Sənayesi Nazirliyinin əsasında “Azərsilah” ASC-nin yaradılması ilə bağlı imzaladığı Fərman da Silahlı Qüvvələrin müasir tələblərə cavab verən müdafiə təyinatlı məhsullarla təmin olunmasında əhəmiyyətli rol oynayacaq. Ölkədə hərbi xərclərin artırılması hərbçilərin sosial vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb olub. Son illərdə hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi sahəsində sistemli tədbirlər görülüb. Hərbi qulluqçuların rütbə və vəzifə maaşları artırılıb, onlar üçün paytaxtda və bölgələrdə xidməti yaşayış binaları tikilib. İndi Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasındadır. Bunu beynəlxalq hərbi tədqiqat mərkəzlərinin hesabatları da təsdiqləyir. Bu nəticəyə isə hərbi potensialın gücləndirilməsi, qoşun birləşmələrinin döyüş hazırlığının müasir standartlar səviyyəsində qurulması sayəsində nail olunub. İndiyə qədər ordunun döyüş qabiliyyətinin daha da artırılması, əməliyyat işləri üzrə hazırlığın gücləndirilməsi, idarəetmənin təkmilləşdirilməsi ilə bağlı birlik və birləşmələrin xeyli sayda komanda-qərargah təlimi keçirilib. Bu təlimlərə Silahlı Qüvvələrin müxtəlif qoşun birləşmələri cəlb olunub. Ordumuzun gücünü son illərdə keçirilən hərbi paradlarda nümayiş etdirilən canlı qüvvə və hərbi texnikadan da görmək olur.

Dövlətimizin başçısına məlumat verildi ki, 13 hektar ərazidə yerləşən hərbi hissənin inşasına 2017-ci ildən başlanılıb. Artıq tikintinin birinci mərhələsi başa çatdırılıb. Hazırda ikinci mərhələ üzrə işlər davam etdirilir. Hərbi şəhərcikdə inzibati, xidməti, yaşayış, texniki binalar inşa olunub, qurğular yerləşdirilib. Ərazidə şəxsi heyətin uzunmüddətli yerləşdirilməsi məqsədilə yataq, məişət və xidməti sahələrdən ibarət əsgər yataqxanaları tikilib. Ailəli hərbi qulluqçuların yerləşdirilməsi üçün birmərtəbəli dörd xidməti yaşayış binasında 32-si üçotaqlı, 16-sı ikiotaqlı olmaqla, 48 mənzilin tikintisi davam etdirilir. Təntənəli mərasimlər, qoşunların sıra təlimləri, düzülüşlər, şəxsi heyətin sıra baxışı, döyüş və fiziki hazırlıq, eləcə də digər tədbirlərin keçirilməsi üçün sıra meydanı da salınıb.



Prezident, Ali Baş Komandan İlham Əliyev burada silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə tanış oldu. Yaylım atəşli reaktiv sistem SMERÇ kompleksi reaktiv mərmilər atmaqla nüvə hücum vasitələrinə, cəmləşmə rayonlarında, marşda və döyüş düzülüşündə tank, motoatıcı, artilleriya və raket bölmələrinə, enmə meydançalarında helikopter bölmələrinə, mövqelərdə raket və hava hücumundan müdafiə bölmələrinə, idarəetmə məntəqələrinə tələfat vermək üçün təyin olunub. 122 millimetrlik yaylım atəşli reaktiv sistem BM-21 cəmləşmə rayonlarında düşmənin canlı qüvvəsini və döyüş texnikasını, atəş mövqeyində artilleriya və minaatan batareyalarını məhv etmək və susdurmaq, düşmənin istehkam, dayaq məntəqəsi və müqavimət mərkəzlərini dağıtmaq üçün təyin edilib. 220 millimetrlik TOS-1A ağır odatan sistemi T-90 tankının şassisi üzərində quraşdırılan reaktiv qurğudur. O, idarə olunmayan reaktiv mərmilərin daşınması, saxlanması, hədəfə tuşlanması və düşmənin tağım dayaq məntəqəsi tipli ərazi hədəflərini, həmlə edən bölük, artilleriya və minaatan batareyalarının atəş mövqelərini, marşda olan avtomobil kolonlarının məhv edilməsi üçün təyin olunub. 152 millimetrlik 2A36 topu düşmənin taktiki raket vasitələrini, uzaqvuran artilleriya bölmələrini məhv etmək və susdurmaq, düşmənin canlı qüvvəsini, atəş vasitələrini, marş zamanı döyüş texnikalarını, cəmləşmə rayonlarını, müdafiə məntəqələrini məhv etmək və susdurmaq, düşmənin arxa cəbhəsini və idarəetmə məntəqələrini tələfata uğratmaq üçün təyin edilib. 130 millimetrlik M46 topu düşmənin artilleriyasını, minaatanlarını, cəmləşmə rayonlarında yerləşən texnikasını və canlı qüvvəsini, arxa xidmət məntəqələrini və ordunun idarəetmə bölmələrini məhv etmək, səhra və uzunmüddətli müdafiə qurğularını dağıtmaq üçün təyin olunub. 120 millimetrlik “Nizə” minaatanı düşmənin yüksəkliklərdə, yamaclarda, təpələrin arxasında yerləşən canlı qüvvəsini, döyüş texnikasını məhv etmək və motoatıcı bölmələrin atəş dəstəyini təmin etmək üçün nəzərdə tutulub. Bu kompleks lazer-tuşlayıcı və avtomatik idarəetmə sistemi ilə yüksək dəqiqliklə qısa zamanda hədəfləri məhv etməyə qadirdir. “Nizə” döyüş maşını yolsuzluq şəraitində yüksək manevr imkanlarına malik olub, heyətin qorunmasını və təhlükəsizliyini təmin edir. Tankəleyhinə idarə olunan raket kompleksi “Xrizantema-S” sutkanın istənilən vaxtında, hava şəraitindən asılı olmayaraq hərəkət edən və etməyən yerüstü və hava hədəflərini məhv etmək üçün nəzərdə tutulub. Tank əleyhinə raket kompleksi “SPİKE-LR” düşmənin 200 metrdən 4 min metrədək məsafədə hərəkət edən və hərəkətsiz tank və zirehli texnikalarını, canlı qüvvələrini məhv etmək üçün təyin olunub. Kompleks yüngül çöl müdafiə qurğularına, binalara, alçaqdan uçan helikopterlərə də dəqiq atəş açmaq imkanı yaradır. Həmçinin kompleksdən kəşfiyyat xarakterli əməliyyatlarda da istifadə etmək mümkündür. “SPİKE-ER” qurğusu isə döyüş maşını üzərində quraşdırılan, müxtəlif relyef şəraitinə uyğunlaşan, 400 metrdən 8 min metrədək, gündüz, gecə və məhdud görmə şəraitlərində düşmən tanklarını, PDM, zirehli texnikalarını, aşağı yüksəklikdə uçan hava hədəflərini məhv etmək üçün raket buraxıcı sistemdir. “Orbiter-2B” pilotsuz uçuş aparatı döyüş əməliyyatlarında tətbiq etmək, hava kəşfiyyatını aparmaq, eləcə də istənilən şəraitdə hədəfgöstərmə və artilleriya atəşinə xidmət etmək üçün təyin olunub. Universal radiolokasiya kompleksi düşmənin atəş açan taktiki raketlərinin, reaktiv qurğularının, haubitsaları və minaatanlarının kəşfiyyatını aparmağa və öz artilleriya bölmələrimizin atışına xidmət etmək üçün təyin edilib. “R-010SC” komanda-qərargah maşını əməliyyat idarəetmə səviyyələrində tətbiq olunmaqla, hərəkətdə və dayanacaqda qərargah zabitlərinin idarəetməsini təmin etmək üçün nəzərdə tutulub. “R-010SC” radioidarəetmə məntəqəsi isə analoq və rəqəmsal açıq, məxfi, sinxron tezlik dəyişən, həmçinin bütün növ məlumatların kompüter vasitəsilə ötürülməsi və qəbulu üçün nəzərdə tutulub.

Şəxsi heyətə ixtisaslı tibbi yardımın göstərilməsi məqsədilə ərazidə xüsusi tibbi avadanlıqla təchiz edilmiş tibb məntəqəsi, qarovul məntəqəsi, yemək zalından, yeməkbişirmə, ərzaq və təsərrüfat otaqlarından, ərzaq və soyuducu anbarlardan ibarət yeməkxana binası inşa olunub. Ərazidə gündəlik 720 kiloqram paltar yumaq, qurutmaq və ütüləmək imkanına malik hamamxana-camaşırxana-qazanxana kompleksi yaradılıb. Hərbi hissədə avtomobil və xüsusi texnikanın yerləşdirilməsi üçün park da salınıb.

Prezident İlham Əliyev daha sonra yeməkxanada yaradılan şəraitlə maraqlandı, hərbi hissənin şəxsi heyəti ilə birlikdə nahar etdi.

Bütün bunlar göstərir ki, orduda aparılan islahatlar öz bəhrəsini verir. Döyüş hazırlığının yüksək tələblərə cavab verən səviyyəyə çatdırılmasını prioritet vəzifə kimi müəyyənləşdirən Prezident İlham Əliyev təmas xəttində yerləşən bölgələrimizə mütəmadi səfərlər edir. Ali Baş Komandanın əsgərlərimizlə keçirdiyi görüşlər onları Vətəni qorumağa, işğal altındakı torpaqlarımız uğrunda hər an savaşa qalxmağa ruhlandırır. Bununla da güclü ordu potensialımız bizi əsas məqsədimizə, işğal edilən torpaqlarımızın azad olunmasına daha da yaxınlaşdırır. Bunun nəticəsidir ki, qəhrəman hərbçilərimizin uğurlu əks-hücum əməliyyatı nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2 min hektardan çox hissəsi 2016-cı ildə azad olunub. Füzuli rayonu istiqamətində yerləşən və geniş ərazini nəzarətdə saxlamağa imkan verən strateji əhəmiyyətli Lələtəpə yüksəkliyi ələ keçirilib. Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Ermənistan silahlı birləşmələrinin işğalı altında olan Günnüt kəndinin 26 ildən sonra ordumuzun nəzarəti altına keçməsi nəticəsində Xunut dağı və Ağbulaq yüksəkliyi, Qızılqaya dağı və Mehridağ işğaldan azad edilib, ümumilikdə 11 min hektara yaxın ərazi nəzarət altına alınıb. Bu da göstərir ki, peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir və bu ordunun gücünün əsasında xalqına, dövlətinə sədaqət və Vətən sevgisi durur.

# Fəal gənclərin bir qrupu ilə veteranların görüşü olub

Respublika Veteranlar Təşkilatı gənclərin vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, onların milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda yetişmələri üçün ardıcıl iş aparır. Müntəzəm surətdə gənclərlə müxtəlif yerlərdə görüşlər keçirir, Azərbaycanın şanlı tarixi, döyüş ənənələri və gənclər gününün hərtərəfli təbliğində bilik və təcrübəsini əsirgəmir.

Bu fikirlər fevralın 7-də Azərbaycan Respublikası



Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında keçirilən fəal gənclərlə görüşdə səsləndirilib.

Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək bildirib ki, gənclərin zəngin həyat təcrübəsinə malik veteranlardan öyrənmək, veteranların isə gənc nəslin nümayəndələrinə tövsiyələrini vermək baxımından belə görüşlə-



rin önəmi böyükdür. Hazırda Azərbaycan əhalisinin təqribən üçdə birini gənclər təşkil edir, onlar xalqına, dövlətçiliyinə sədaqətli, vətənpərvər, yüksək mənəvi və əxlaqi keyfiyyətlərə malik insanlardır. O, Azərbaycanın ictimai-siyasi həyatında, müxtəlif sahələrdə qazanılan yüksək nəticələrdə gənclərin yaxından iştirakından danışaraq deyib: “Azərbaycanda müasir gənclər siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu öndər Heydər Əliyev gənclərin potensialının üzə çıxarılması, onların təhsilli, geniş dünyagörüşünə malik vətənpərvər insanlar kimi yetişməsinə mühüm əhəmiyyət verirdi. Ümummilli Lider ölkənin inkişafında gənclərin iştirakını zəruri sayır, onları mühüm vəzifələrə irəli çəkirdi. Ulu öndər Heydər Əliyevin gəncliyə göstərdiyi qayğının təzahürü kimi, fevralın 2-si respublikamızda Azərbaycan Gəncləri Günü elan olunub. Azərbaycan gəncləri 1997-ci ildən bəri hər il bu gün ən yüksək səviyyədə qeyd edirlər. Bütün bunlar gənclərin təşkilatlanmasına, hərtərəfli formalaşmasına şərait yaradıb”.

C.Xəlilov qeyd edib ki, daim Azərbaycan gənclərinin yanında olan Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın 2 fevral – Azərbaycan Gəncləri Günü münasibətilə təşkil olunan respublika toplantısında iştirakı, dövlətimizin başçısının gənclərin fəaliyyətinə yüksək diqqət verməsi, eləcə də Azərbaycan gəncliyinin qarşısında duran əsas hədəf və vəzifələri dəqiq müəyyənləşdirməsi, Prezident İlham Əliyevin müxtəlif sahələrdə böyük uğurlar qazanan, fədakarlıq göstərən gəncləri təltif etməsi gənc nəslin bütün nümayəndələrini daha böyük nailiyyətlər qazanmağa həvəsləndirməklə yanaşı, onlara əsl bayram sevinci yaşatdı.

O, Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən gənclərin istedad və bacarıqlarının üzə çıxarılması istiqamətində həyata keçirilən layihələrin yetişməkdə olan nəslin gələcəyinin etibarlı təminatında əhəmiyyətini xüsusi vurğulayıb. Eləcə də Heydər Əliyev Fondunun vitse-




prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə xaricdə və ölkəmizdə reallaşan layihələrin Azərbaycanın uğurlarının təbliğində, gənclərimizin fəallığının artırılmasında və onların fəaliyyətlərinin əlaqələndirilməsində mühüm rol oynadığını qeyd edib.

Ehtiyatda olan polkovnik diqqətə çatdırıb ki, hazırda ordu sıralarında xidmət edən, müxtəlif sahələrdə çalışan, təhsil alan gənclərimizin hərbi vətənpərvərlik ruhunda yetişməsi bizi sevindirir. Torpaqlarımızın işğaldan azad edilməsi yönündə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən ardıcıl iş aparılır. Azərbaycanın güclü ordusunun formalaşdırılması, müharibə əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, veteranlarımıza göstərilən qayğı bunun əyani təzahürüdür. Aprel döyüşləri və Naxçıvanda həyata keçirilən hərbi əməliyyatlar Ordumuzun gücünü, döyüş əzmini aydın şəkildə nümayiş etdirdi. Bütün bunlar Azərbaycanın ərazi bütövlüyünün təmin ediləcəyinə inamımızı daha da artırır.



Nərimanov Rayon İcra Hakimiyyəti başçısının müavini İlqar Mirzəyev, rayon gənclər və idman idarəsinin rəisi Nəcəf Novruzov, Gənclər və İdman Nazirliyinin gənclərlə iş sektorunun müdiri Əli Məmmədov, İkinci Dünya müharibəsi veteranları adından çıxış edən Fatma Səttarova, İsmayıl Fərəcov və başqaları belə tədbirlərin nəsillər arasında əlaqələrin vacibliyindən, gənclərimizə dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan, Azərbaycan həqiqətlərinin dünyada təbliğində gənclərin rolundan, könüllülük hərəkatında gənclərin iştirakından, onların rəşadət və mərdliyindən söhbət açıblar. Natiqlər gəncləri Vətəni sevməyə, onu müdafiə etməyə, işğalçılardan azad etməyə hər zaman hazır olmağa çağırıblar.



Sonda bir qrup şəxs Respublika Veteranları Təşkilatının yubiley medalları və fəxri fərmanlar ilə təltif olunub, birgə xatirə şəkili çəkilib.

# “Alman faşizminə qalib gələn xalqımızın erməni faşizminə də qalib gələcəyinə əminəm”



***Cəlil Xəlilov: “İstəyirik ki, babalarının göstərdiyi qəhrəmanlıqları gənclərimiz Qarabağda təkrarlasın”***

***“Azərbaycanın Böyük Vətən müharibəsindəki iştirakını əks etdirən muzeyin yaradılmasına ehtiyac var”***

Artıq uzun illərdir ki, Qarabağ konfliktinin həlli, işğal altındakı torpaqlarımızın azad edilməsi ölkəmizi düşündürən, onun qarşısında duran bir nömrəli problem olaraq qalmaqdadır. Problemin sülh yolu ilə həlli cəhdlərinin hələ də səmərə verməməsi, münaqişənin hərbi müstəvidə həll ehtimalını yüksəltməkdədir. Bu isə müharibə veteranlarını, onların döyüş təcrübəsini, hərbi bilik və bacarığını, həmçinin onların gənclərə təlqin etdiyi hərbi vətənpərvərlik sevgisini dövlətimizin və xalqımızın maraqları baxımından ikiqat əhəmiyyət kəsb edir.

Respublika Veteranlar Təşkilatının sədr müavini, polkovnik Cəlil Xəlilovla söhbətimizdə bu və bu kimi məsələləri şərh etməyə, təşkilatın gördüyü və planlaşdırdığı işlərə nəzər salmağa çalışdıq.

*-Cəlil müəllim, öncə Respublika Veteranlar Təşkilatının 2018-ci ildə həyata keçirdiyi layihələrlə bağlı fikirlərinizi bilmək istərdik. Ötən ili təşkilatınızın fəaliyyəti baxımından nə dərəcədə uğurlu hesab edirsiniz?*

Ötən il bir sıra tədbirlərlə əlamətdar olub. Biz 2018-ci ildə Ümummili liderimiz Heydər Əliyevin 95 illiyi, Cümhuriyyətin və ordumuzun yaranmasının 100 illiyi ilə əlaqədar təşkilatımız tərəfindən bir sıra tədbirlər təşkil edilib. Ötən il təşkilatımızın 30 illiyini də yüksək səviyyədə keçirmişik. Bu tədbirlərdə beynəlxalq təşkilatların nümayəndələri də iştirak edib.

Cümhuriyyətin 100 illiyi ilə bağlı Bakıda və regionlarda, qonşu ölkələrdə, həmçinin ali və orta məktəblərdə gənclərlə görüşlər keçirmişik. Ordumuzun 100 illiyi ilə bağlı cəbhə bölgələrində olmuşuq, zabit və əsgərlərlə görüşmüşük. Yaxşı xidmət edən hərbi qulluqçuları təşkilatımızın təsis etdiyi medallarla, fəxri fərmanlarla, diplomlarla mükafatlandırmışıq. Həmçinin 100 illiklə əlaqədar təşkilatımız tərəfindən “Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu” adlı kitab nəşr olunub.

Ümummilli liderimizin xalq qarşısındakı xidmətləri danılmazdır və biz bunun təbliğini də özümüzə borc bilirik. Onun istər sovet dönəmində, istərsə də müstəqillik dönəmində veteranlara göstərdiyi diqqət və qayğını heç kim unuda bilməz. Biz kimsəyə imkan vermərik ki, onun gördüyü işlərə kölgə salmağa cəhd etsin.

Prezident İlham Əliyevin də veteranlara qayğısı göz qabağındadır. Bizim təşkilatımız üçün yaradılan şərait də ölkə başçısının veteranlara olan qayğısının bariz nümunəsidir. 2015-ci ildə ölkə başçısı I vitse-prezident Mehriban xanımla birlikdə təşkilatımızda olublar, veteranlarla görüşüblər, inzibati binanın açarını bizə təqdim ediblər və veteranların burada çalışması, tədbirlər keçirməsi, qonaqlar qəbul etməsi üçün şərait yaradıblar. Veteranlarımız da bu diqqətin müqabilində Vətən və xalq qarşısındakı borclarını layiqincə yerinə yetirməyə çalışırlar. Onlar hərbi təcrübələrini, hərbi biliklərini gənclərlə bölüşməyi özlərinin əsas işi hesab edirlər. Çalışırlar ki, tez-tez cəbhə bölgəsində olsunlar, əsgər və zabitlərlə görüşsünlər. Orta və ali məktəblərdə gənclərimizin vətənpərvərlik ruhunda tərbiyəsi işi təşkilatımızın həyata keçirdiyi əsas istiqamətlərdən biridir. Təhsil Nazirliyi, Müdafiə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Gənclər və İdman Nazirliyi, həmçinin digər qoşun növləri ilə işgüzar əlaqələrimiz qurulub.

*-Respublika Veteranlar Təşkilatı xaricdəki veteran təşkilatları ilə də əməkdaşlıq edirmi?*

-Dünyanın 34 ölkəsinin Veteran Təşkilatları ilə əlaqə yaratmışıq. Ötən il Bakıda 24 ölkənin nümayəndəsinin iştirak etdiyi “Müasir dünyada təhlükəsizlik: qlobal və regional çağrışlar” mövzusunda keçirilən beynəlxalq konfransda Dünya Veteranlar Federasiyasının sədri Dan-Viggo Bergtun qonağımız oldu. O, qayıdandan sonra prezidentimizə təşəkkür məktubu göndərdi. O, məktubunda qeyd etmişdi ki, Azərbaycanın veteranlar təşkilatını dünya veteranları təşkilatlarına nümunə göstərmək olar. Biz əməkdaşlıq etdiyimiz təşkilatlar qarşısında tez-tez Qarabağ məsələsini qaldırır, onları Azərbaycanın haqlı mövqeyini müdafiə etməyə səsləyirik.

*-Dünya Veteranlar Federasiyası da Qarabağ problemi haqqında məlumatlandırılıbmı?*

-Əlbəttə ki, məlumatlandırılıb. Biz Dünya Veteranlar Federasiyasına Qarabağ məsələsi ilə bağlı geniş məlumatlar verdik. Rəyasət Heyəti adından dünya veteranlarına bəyanat qəbul edildi. Bəyanatda dünya veteranlarının Qarabağ məsələsindəki biganəliyi qınanıldı, bundan duyduğumuz təəssüf öz əksini tapdı. Bu məsələ 16-18 fevral tarixində Fransada Dünya Veteranlar Federasiyasının 29-cu Baş Assambleyasında müzakirəyə çıxarılacaq. Məni də bu tədbirdə iştiraka dəvət ediblər. Lakin maddi durumumuz bizim orada iştirakımıza imkan vermir və bu səbəbdən də Xarici İşlər Nazirliyinə ünvanladığımız məktub əsasında həmin tədbirdə Azərbaycanın Fransadakı səfirliyinin nümayəndələrinin iştirakını xahiş etmişik.

*-Cəlil müəllim, Azərbaycan ordusu təkmilləşməkdə, öz müdafiə qüdrətini artırmaqda davam edir. Sizcə ölkəmizin artan gücü Ermənistanı sülhə vadar edə, onu işğal etdiyi torpaqları müharibəsiz azad etməyə vadar edə bilərmi?*

-Azərbaycanın hərbi gücünün günbəgün artdığı, ordumuzun hərbi-texniki imkanları yüksək səviyyədə olduğu kimsəyə sirr deyil. Məhz Azərbaycanın artan hərbi gücü Ermənistanı sülhə vadar etmək baxımından ən mühüm, ən həlledici amildir. Ermənistan gec-tez Qarabağ problemini sülh yolu ilə həll etməyə məcbur olacaq. Çünki onun başqa yolu yoxdur. Ermənistan kimi ikinci bir ölkə yoxdur ki, öz xalqına bu qədər zülm etsin, iqtisadi blokadada saxlasın. Çünki Azərbaycan sülhpərvər dövlətdir. Əgər Ermənistan problemin sülh yolu ilə həllinə tərəfdar olmasa, yenə öz işğalçılıq mövqeyində təkid etsə, o zaman Azərbaycan məcburdur ki, problemi hərbi müstəvidə həll etsin. Sovet İttifaqının, ümumiyyətlə mütərəqqi dünyanın faşizmə qalib gəlməsində Azərbaycanın xüsusi rolu və xidmətləri mövcuddur. Bu gün biz erməni faşizmi ilə üzbəüzük. Biz erməni faşizminə də qalib gələcəyik. Lakin bu məsələdə dünya birliyi, aparıcı ölkələr, beynəlxalq təşkilatlar da aktiv olmalı, işğalçıya təzyiq göstərməlidir. Bizim xüsusilə Rusiyadan böyük gözləntilərimiz var. Rusiya Azərbaycana dost olan, qonşu olan böyük bir dövlət kimi Qarabağ məsələsində ədalətli mövqe ortaya qoymalı, Ermənistana təzyiq göstərməlidir ki, Ermənistan heç bir şərt qoymadan işğal altındakı Azərbaycan torpaqlarını azad etsin.

*-Respublika Veteranlar Təşkilatı olaraq gələcəklə bağlı planlarınız nədən ibarətdir?*

-Gələcək planlarımız genişdir. Bildiyiniz kimi Prezident İlham Əliyev Xocalı soyqırımının iyirmi yeddinci ildönümü haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Xocalı soyqırımının ildönümü ilə bağlı tədbirlər planını hazırlayıb onun həyata keçirilməsini təmin etmək tapşırılıb. Bununla bağlı məktəblərdə müxtəlif tədbirlər, o cümlədən fevral ayının 22-də veteranlarımızın iştirakı ilə Caspian Təhsil Mərkəzində Xocalı soyqırımı ilə bağlı tədbir keçiriləcək.

Keçirilən tədbirlərdə məqsədimiz odur ki, gənclərimiz ölkəmizin güclənməsinə, inkişafına öz töhfələrini versinlər, ölkənin iqtisadi həyatına yeniliklər gətirsinlər. Bizim həm İkinci Dünya müharibəsində, həm Qarabağ müharibəsində, həm də Əfqanıstan müharibəsində böyük igidliklər göstərən hərbçilərimiz olub. Biz onların təbliğatını da həyata keçiririk. Bu qəhrəmanlarımız haqqında filmlərin çəkilməsində, kitabların yazılmasında, onların tanıdılmasında Respublika Veteranlar Təşkilatının mühüm rolu var.

*-Gələn il İkinci Dünya Müharibəsinin başa çatmasının 75 illiyi qeyd olunacaq. 75 illiklə bağlı hansı təklif və planlarınız mövcuddur?*

-Azərbaycan vətəndaşlarının Böyük Vətən Müharibəsindəki xidmətləri ilə bağlı çoxlu kitablar, filmlər var. Lakin bunlar müasir tələblər səviyyəsində deyil. Bu materialları müasirləşdirmək, onların elektron versiyalarını hazırlamaq, daha geniş filmlər, daha ətraflı kitablar yazmaq lazımdır. Azərbaycanın faşizm üzərindəki qələbədəki rolunun dünya ictimaiyyətinə daha ətraflı və daha geniş şəkildə çatdırılmasına nail olmalıyıq. Bizim bir çox insanlarımız var ki, onlar bu müharibədə iştirak ediblər və onların taleyi hələ də məlum deyil. Bu insanların harada, hansı şəraitdə həlak olması ilə bağlı məlumat yoxdur. Biz bu insanlarımızın taleyinə aydınlıq gətirmək üçün bir sıra ölkələrlə yazışmalar aparırıq. Rusiya, Ukrayna, Belarus və Avropa ölkələrinin arxiv idarələri, dövlət orqanları ilə bu yöndə iş aparırıq və sevindiricidir ki, bununla bağlı nailiyyətlərimiz var. Biz Ukraynada 309 nəfər vətəndaşımızı tapmışıq. Hansı ki, onlar haqqında əvvəllər məlumat olmayıb. 206 nəfər vətəndaşımızı isə Moldovada tapmışıq. 24 nəfər soydaşımızın isə Rusiyada, Moskva yaxınlığındakı döyüşlərdə həlak olduğunu müəyyənləşdirdik. İtaliyanın partizan hərəkatında iştirak edən bəzi azərbaycanlıların həlak olması ilə bağlı məlumatlar əldə etdik. Onlara xatirə lövhəsinin qoyulmasına nail olduq. Moldovada, Kişinyov şəhərində parkın salınmasına, həlak olan azərbaycanlılarla bağlı abidənin qoyulmasına nail olduq. Kerçdə, Volqoqradda, Sloveniyada bunlar mövcuddur.

Bu məlumatların əldə edilməsi və orada döyüşən soydaşlarımızın xatirəsinə abidələrin, xatirə lövhələrinin yardılmasının digər bir əhəmiyyəti də var. Həmin ölkələrdə bu gün də azərbaycanlılar yaşayır. Onlar fəxrlə deyə bilirlər ki, bu ölkənin, bu rayonun, bu şəhərin azad olunmasında Azərbaycan xalqının, Azərbaycan oğullarının rolu olub. Bu ərazilərin azad edilməsində onların babaları yaxından iştirak edib. İstəyirik ki, Avropa da, dünya ictimaiyyəti də bilsin ki, bu qələbənin qazanılmasında Azərbaycan xalqının xüsusi rolu olub.

Böyük Vətən Müharibəsi zamanı Azərbaycanda 123 növdə silah-sursat istehsal olunub. Məşhur “Katyuşa” silahı ölkəmizdə hazırlanıb. 28 hərbi hospital ölkəmizdə fəaliyyət göstərib. Hansı ki, bu hospitallarda sovet döyüşçüləri müalicə alıb, onların xeyli hissəsi yenidən ön xətdə, müharibə meydanına qayıdıb. İnsanlarımız evlərinin əşyalarını satıb həmin vəsaiti cəbhəyə göndəriblər. Bunları unutmaq olmaz. İstəyirik ki, babalarının göstərdikləri bu qəhrəmanlıqları gənclərimiz Qarabağda təkrarlasın.

*-Azərbaycanın İkinci Dünya müharibəsindəki iştirakı və göstərdiyi qəhrəmanlıqların təbliği, əbədiləşdirilməsi baxımından daha hansı addımların atılmasını vacib hesab edirsiniz?*

-İstərdik ki, Böyük Vətən müharibəsinə həsr edilmiş muzey olsun. Biz xaricdən gələn qonaqlarımıza, eləcə də gənclərimizə Azərbaycanın Böyük Vətən müharibəsində necə iştirak etdiyini göstərək. Biz bu muzeyin Böyük Vətən müharibəsinin 75 illiyində açılışına nail olmaq istəyirik. Əlaqədar dövlət qurumlarına bununla bağlı müraciət etmək niyyətindəyik. Nə qədər ki, bu müharibənin bəzi iştirakçıları sağdır, nə qədər ki, əlimizdə müəyyən imkanlar var, biz bu muzeyi yaratmalı, müəyyən materialların qorunmasına, gələcək nəsillər üçün saxlanılmasına nail olmalıyıq.

Xatırladım ki, Böyük Vətən müharibəsinin iştirakçısı olan soydaşlarımızdan 400 nəfər hələ də sağdır. Onların 8-i 100 yaşını keçib.

Bunu da qeyd edim ki, Qələbə Günü 90-cı illərin əvvəlində bayram günü kimi qeyd edilmirdi. Bu bayram gününün bərpa edilməsi də ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz ulu öndərin səyi nəticəsində Qələbə Günü bərpa edildi və hər il yüksək səviyyədə qeyd edilir. Şəxsən hər il prezident İlham Əliyev, Mehriban xanım Əliyeva onlarla görüşür, təbrik edir. Veteranlar xüsusi diqqət və qayğı ilə əhatə olunublar. Təşkilatımız da hər il Qələbə Gününü yüksək səviyyədə qeyd edir. Burada müharibə iştirakçıları və azyaşlıların iştirakı ilə tədbir keçirilir. Veteranlar uşaqlarla öz döyüş xatirələrini bölüşür. Uşaqlar isə şeirlərlə, nəğmələrlə çıxış edir, tarix haqqında bu hadisələrin iştirakçılarından məlumat alırlar. Bunun özü də tarixin yaşadılması və xatırlanmasıdır.

*-Cəlil müəllim, sizcə hərbi vətənpərvərlik tərbiyəsinin yüksəlməsində, bu sahədə atılan addımların ictimaiyyətin diqqətinə çatdırılmasında medianın, televiziyaların üzərinə hansı məsuliyyət düşür? Sizcə media bu müstəvidə görülən işlərin işıqlandırılmasına daha çox diqqət göstərməlidirmi?*

-Əfsuslar olsun ki, bu problemə hamı eyni gözlə baxmır, eyni qayğı göstərmir. Bəzi mətbuat orqanları veteranların keçirdiyi tədirlərə barmaqarası baxır. Bura bəzi televiziyalar da daxildir. Mən onların adını çəkmək istəmirəm. Amma onların münasibəti arzuedilən deyil. Biz tədbirlərlə bağlı televiziyalara məktublar göndəririk, xahiş edirik ki, keçirdiyimiz konfrans və ya yubileylərdə iştirak etsinlər. Halbuki, bu tədbirlərdə iştirak onların bir nömrəli işi olmalıdır. Axı veteranı dinləməyib kimi dinləyəcəklər? Bir veteranın sözünü, düşüncəsini ictimaiyyətə, gənclərə çatdırmamaq nə deməkdir?

Biz veteranlarımıza, döyüşən insanlarımıza hər zaman hörmətlə yanaşmalıyıq. Onların sözünün ictimaiyyətə çatdırılması mətbuatın əsas vəzifələrindən biri olmalıdır. Əfsuslar olsun ki, bəzi televiziyalarımız şouya daha çox maraq göstərir, veteranlarla bağlı məsələləri unudurlar. Bu, yolverilməzdir. Bizim qarşımızda Qarabağ kimi problem var. Biz onun həllinə nail olmaq üçün veteranlarımızın, gənclərimizin gücündən, sözün gücündən istifadə edərək qələbə qazanmaqda ölkə başçımıza dayaq olmalı, kömək olmalıyıq. Bu, hər birimizin müqəddəs vəzifəsidir.

***Seymur ƏLİYEV***

AZƏRBAYCAN VETERANI

*General-mayor cənab İsgəndər Allahverdiyevə*
*Hörmətli İsgəndər müəllim,*
*Ad gününüz mübarək!*

Sizin həyatınız Vətənə, xalqa, dövlətə sədaqətlə xidmətiniz gənc nəsil üçün örnək olacaq bir nümunədir. Siz Azərbaycan Respublikası Sərhəd Qoşunlarının ilk komandanı kimi müstəqil və demokratik dövlətimizin bərpa edildiyi mürəkkəb tarixi şəraitdə bu qoşunların yaradılması üçün böyük əmək sərf etmiş, yüksək peşəkarlıq göstərmisiniz.



Sonrakı illərdə Azərbaycan Respublikası Sərhəd Qoşunlarının dövlət sərhədlərinin etibarlı mühafizəsini və təhlükəsizliyini tam təmin edilməsində xüsusi xidmətiniz vardır. Hazırda Sərhəd Qoşunlarının sıralarında xidməti borcunu şərəflə yerinə yetirən yüzlərlə zabitin həyatını məhz bu sahə ilə bağlamasında da Sizin rolunuz danılmazdır.

Sizi doğum gününüz münasibətilə bir daha ürəkdən təbrik edir, möhkəm cansağlığı, ailə səadəti, bütün işlərinizdə uğurlar arzulayırıq.

*Hörmətlə,*
*Respublika Veteranlar Təşkilatının*
*sədri general-polkovnik Tofiq Ağahüseynov*
*və Təşkilatın sədr müavini*
*polkovnik Cəlil Xəlilov*

# Elmi müəssisələrdə veteran şuralarının işi təkmilləşdiriləcək

Fevralın 12-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Birləşmiş Veteranlar Şurasının (BVŞ) növbəti iclası keçirilib.

İclasda şuranın sədri Eldar Quliyev veteranların sosial və hüquqi müdafiəsinin təmin edilməsinin "Veteranlar haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tənzimləndiyini deyib. Diqqətə çatdırıb ki, 2019-cu ildə AMEA BVŞ tərəfindən əməyin stimullaşdırılması, ehtiyacı olan veteranlara yardım edilməsi, elmi müəssisələrdə veteran şuralarının işinin təkmilləşdirilməsi məqsədilə hazırlanmış tədbirlər planı icra olunacaq. Cari ildə 37 aztəminatlı veterana birdəfəlik müavinət ödəniləcək, 37 veteran tibbi sanatoriyalara göndəriləcək və digər tədbirlər həyata keçiriləcək.



İclasda, həmçinin Milli Azərbaycan Tarixi Muzeyinin, Şamaxı Astrofizika Rəsədxanasının, Neft-Kimya Prosesləri və Polimer Materialları institutlarının veteranlar şuralarının sədrləri təkliflərlə çıxış ediblər.

# Hərbi hissələrdə andiçmə mərasimi keçirilib

Fevralın 10-da Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissə və birləşmələrdə gənc əsgərlərin andiçmə mərasimi keçirilib.



Bütün qoşun növlərində, hərbi birliklərdə, eləcə də digər təminat hərbi hissələrində təşkil edilmiş mərasimlərdə rituala uyğun olaraq döyüş bayrağı sıra meydanına gətirilərək Dövlət himni ifa edilib və tədbir açıq elan olunub.

Sonra gənc əsgərlər təntənəli surətdə hərbi andı qəbul ediblər.

Andiçmə mərasimlərində hərbi hissələrin komandanlığı, şəhid ailələrinin üzvləri, yerli icra orqanları və ictimaiyyət nümayəndələri, veteranlar, əsgər valideynləri iştirak ediblər.

# Milli Qəhrəman Viktor Seryoginə həsr edilmiş sənədli film təqdim edildi

***V.Seryogin 28 yanvar 1992-ci ildə Ağdam-Şuşa istiqamətində erməni yaraqlıları vertolyotu atəşə tutması nəticəsində heyətlə birlikdə qəhrəmancasına həlak olub.***

Dövlət himni səsləndirildikdən sonra MAA-nın tədris işləri üzrə prorektoru Ədalət Səmədov tədbir iştirakçılarını akademiyanın rektoru, akademik Arif Paşayevin adından salamladı və aviasiya sahəsində xidmətlər göstərən milli qəhrəmanlar haqqında filmin tələbələr qarşısında nümayişinə göstərilən təşəbbüsə görə təşəkkürünü bildirdi.

Filmin yaradıcı heyətinə minnətdarlığını ifadə edən prorektor qorxmaz pilotun ömür yolundan danışdı. Bildirdi ki, Viktor Seryogin 23 mart 1944-cü ildə Tbilisi şəhərində doğulub. 1986-cı ildə Kremençuq Mülki Aviasiya Məktəbini bitirdikdən sonra Zabrat Əlahiddə Aviasiya Dəstəsinə məxsus Mİ-2 vertolyotuna pilot təyin edilib. Azərbaycanın Hərbi Hava Qüvvələrinin yaradılmasında onun böyük xidməti olub. Dəfələrlə ordenlərlə təltif edilib. O, Ağdərə, Şuşa, Ağdamda dinc sakinləri dəfələrlə xilas edərək təhlükəsiz əraziyə daşımışdı. Azərbaycanı öz doğma vətəni qədər sevən V.Seryogin 28 yanvar 1992-ci ildə Ağdam-Şuşa istiqamətində erməni yaraqlıları vertolyotu atəşə tutması nəticəsində heyətlə birlikdə qəhrəmancasına həlak olub. Ölməz qəhrəman Bakıda Şəhidlər xiyabanında dəfn edilib. Respublika Prezidentinin 25 noyabr 1992-ci il tarixli fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Hazırda yaşadığı Xəzər rayonunun Buzovna qəsəbəsində qəhrəmanın adına küçə və Xarkov şəhərində isə yaşadığı binaya xatirə lövhəsi vurulub.

Filmin rejissoru Cəmil Fərəcov tədbir iştirakçılarına təşəkkür edərək filmin çəkilişlərində dəstək göstərən təşkilatlara və qəhrəmanın pilot dostlarına minnətdarlığını bildirdi.

Təyyarəçi, MAA-nın müəllimi, Qarabağ müharibəsi iştirakçısı Bayram Muxtarov Viktor Seryoginlə bağlı xatirələrini bölüşdü. O, şəhid pilotun həyat yolundan, döyüşlərdə göstərdiyi qəhrəmanlıqlardan bəhs edərək bu şərəfli ömrün gənc nəsillər üçün örnək olduğunu vurğuladı.

Daha sonra "Əbədiyyətə uçuş" filmi nümayiş olundu. Qəhrəmanın həyat yolundan bəhs edən filmdə Viktor Seryoginin təyyarəçi dostlarının xatirələri yer alıb.

Filmin operatoru Nizami Abbas, icraçı prodüseri Kamil Məmmədovdur.

# Öz zəhməti ilə ucalan veteran müəllim medala layiq görüldü

Ömrünün müdriklik çağını yaşayan Məşdi Zeynalovu hamımız zəhmetkeş insan, qayğıkeş ailə başçısı, fəal ictimaiyyətçi kimi tanıyırıq.

Məşdi Məmmədrza oğlu Zeynalov 1934-cü ildə Azərbaycanın dilbər guşələrindən biri olan Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Şahtaxtı kəndində anadan olub. Böyük Vətən Müharibəsi illərində uşaq olmasına baxmayaraq 1943-1945-ci ildə kolxozda işləmiş, eyni zamanda da məktəbdə oxumuş, daha sonra 1952-ci ildə orta məktəbi bitirmişdir. 1954-cü ildə C.Məmmədquluzadə adına ikillik Naxçıvan Dövlət Müəllimlər İnstitutunu bitirmişdir. Təyinatla Lerik rayonuna Vistan kənd 7 illik məktəbdə fizika-riyaziyyat müəllimi olaraq işləməyə göndərilmişdir.

M.Zeynalov 1954-1957-ci illərdə hərbi xidmətdə olub, ordu sıralarında xidmət edərkən diviziyanın yığma komandasının tərkibində idmanın ən çətin növü-klassik güləş ilə məşğul olmuş SSRİ-nin bir sıra şəhərlərində keçirilən yarışlara qatılmış və mükafatlandırılmışdır. Bu maraq onu idman sahəsində təhsil almağa yönləndirib, 1958-1962-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda təhsil alıb. Məşdi müəllim 1963-cü ildən taleyini Sumqayıt şəhəri ilə bağlayıb. 1963-cü ildən 1971-ci ilədək 17 saylı texniki peşə məktəbində, 1971-ci ildən 1980-ci ilədək 21 saylı tam orta məktəbdə, 1980-ci ildən 2011-ci ilədək 27 saylı tam orta məktəbdə baş bədən tərbiyəsi müəllimi işləmiş, 2011-ci ildən yaşa görə təqaüdə çıxmışdır.1977-1990-ci illərdə şagird istehsalat briqadalarının şəhər üzrə qərargahının rəisi kimi fəaliyyət göstərib.

55 ildən artıq pedaqoji staja malikdir. Şagirdlərin sağlam və gümrah böyümələri üçün əlindən gələni əsirgəməyib. İdman icmalçısı kimi dövrü mətbuatda çıxış edib. Yetirmələrinin sorağı mötəbər yarışlardan eşidilir. Onun fədakar əməyi "Qabaqcıl maarif xadimi" döş nişanı ilə təltif olunub. Məşdi müəllim təqaüdə çıxsa da ictimai həyatdan kənarda qalmayıb. Şəhər Təhsil şöbəsi Veteranlar Təşkilatının sədridir, həm də şəhər veteranlar təşkilatının məsul katibidir. Məşdi müəllim həm də fəal ictimaiyyətçidir. Çalışdığı məktəblərdə partiya təşkilat katibi olub. Bütün həyatını idmana, bədən tərbiyəsinə həsr etmişdir. M.Zeynalov Yeni Azərbaycan Partiyasının üzvüdür. 2003-cü ildən 2011-ci ilədək, partiyanın Sumqayıt şəhər təşkilatının 27 saylı məktəb üzrə ərazi təşkilatının sədri vəzifəsində çalışmışdır.

Onun yazdığı icmallar, məqalələr



və xəbərlər respublika qəzetlərində müntəzəm olaraq oxunmaqdadır.

Məşdi müəllim Respublika Veteranlar Təşkilatının "General Əliağa Şıxlınski" yubiley medalına layiq görülüb. Veteran pedaqoqu bu münasibətlə təbrik edir, işlərində uğurlar diləyirik.

# RESPUBLİKA VETERANLAR TƏŞKİLATINDA XATİRƏLƏRİM

*Veteranlar Təşkilatı respublikanın ən böyük ictimai qurumlarından biridir. 1960-cı il iyun ayının 10-da Veteranların Bakı Komitəsi kimi yaranan və özündə Böyük Vətən Müharibəsinin iştirakçılarını birləşdirən bu təşkilatın ilk sədri uzun illər Sovet İttifaqı Qəhrəmanı Aslan Vəzirov olmuşdur, sonra onu bu vəzifədə general Akim Abbasov əvəz etmişdir.*

*1987-ci ildə təşkilatın əhatə dairəsi genişləndirilmiş, Bakı Komitəsinin əsasında Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı yaradılmış, Veteranların Bakı Komitəsi onun tərkibində eyni hərbi hissədə xidmət edən veteranların bir bölməsi kimi saxlanmışdır. Təşkilat təqaüdə çıxmış əmək, hüquq-mühafizə və müharibədən sonrakı illərdə ordudan tərxis olunmuş silahlı qüvvələr veteranlarını da öz sırasında birləşdirmişdir. Peşəkar sərhədçi, azərbaycanlı sərhədçilərdən ilk dəfə general rütbəsinə layiq görülmüş Mustafa Nəsirov təşkilatın ilk sədri seçilmişdir. 1994-cü ildən sonra isə ona 9 il general Bahadur Hüseynov, bir neçə il də polkovnik Baloğlan Rüstəmov rəhbərlik etmişdir. Böyük Vətən müharibəsinin fəal iştirakçıları olan, adlarını çəkdiklərim hərbi xadimlərin respublikamızda veteran işinin inkişafında, təşkilatın hörmət və nüfuzunun artırılmasında müstəsna xidmətləri olmuşdur.*

Təəssüflər olsun ki, müstəqilliyimizin bərpa olunmasının ilk illərində hakimiyyətdə olan başıpozuq qüvvələr 1941-1945-ci illər Böyük Vətən müharibəsində faşizm üzərində tarixi Qələbəni gözdən salmağa çalışaraq veteranlara və onların təşkilatına yad münasibət bəslədilər.

Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsindən dərhal sonra ‘‘Veteranlar Haqqında” tarixi qanunu imzalaması bu yad münasibətə son qoydu. Qanunun qəbul edilməsi respublikada veteran hərəkatının ildən - ilə canlanmasını, veteranlara göstərilən diqqət və qayğının gücləndirilməsini təmin etdi.

Veteranlar Təşkilatı Rəyasət heyətinin iclası 2009-cu il mart ayının 31 -də oldu. İclasın qərarı ilə Təşkilat sədrinin birinci müavini vəzifəsini mənə həvalə etdilər. Burada Rəyasət Heyətinin digər üzvləri Bakı Veteranlar Komitəsinin əsasını qoyanlardan biri, veteran hərəkatına dair 80-dən artıq kitabın müəllifi Respublikanın Əməkdar Mədəniyyət, sonra da Təbliğatçısı adlarına layiq görülmüş Aleksandr Qritçenko, öz fədakar tədqiqatları ilə general Həzi Aslanovun ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi haqqında gizlədilmiş sənədlərin üzə çıxarılmasına və bu yüksək adın generala verilməsinə nail olmuş alim jurnalist, Mədəniyyət və İncəsənət İnstitutunun professoru Musa Bağırov, uzun illər “Azərbaycan”, Ulyanovsk Vilayət, “Vətən” nəşriyatlarının direktoru olmuş, ilk azərbaycanlı poliqrafçı alim Şəddat Cəfərov, şair publisist, Əməkdar İncəsənət xadimi polkovnik Abdulla Qurbani ilə də tanış oldum. Veteranlar Təşkilatının növbəti Plenumunda isə məni Büronun, Rəyasət heyətinin üzvü və Təşkilat sədrinin birinci müavini vəzifələrinə seçdilər.

Təşkilatın sədri Əlövsət Baxışov böyük təcrübəsi və təşkilatçılıq qabiliyyətinə, uzun illər yuxarıda adlarını çəkdiyim veteran hərəkatının korifeyləri ilə birlikdə işlədiyinə görə işi yaxşı mənimsəmiş, təşkilatın hörmət və nüfuzunu qoruyub saxlaya bilmişdi. İdarəmizin və onun iş otaqlarının qapıları veteranların üzünə həmişə açıq olardı. Ona müraciət edən hər bir veteranı səbrlə dinləyir, onlara əlindən gələn köməyi göstərirdi. İdarəyə rəhbərlik və gündəlik praktiki iş, səhhətindəki nasazlıq ona veteran hərəkatının qlobal məsələləri ilə məşğul olmağa imkan vermirdi. Bu işdə onun ən yaxın köməkçisi təşkilat sədrinin müavini Çingiz Kərim oğlu Həsənov idi.

Biz Çingiz müəllimlə bir otaqda işləyirdik. Mən onu 40 ildən artıq idi ki, tanıyırdım. Mülayim, gülərüz, səmimi və qayğıkeş insan idi. Böyük Vətən müharibəsinin fəal iştirakçısı olmuş, müharibədən sonra Universitetin hüquq fakültəsini bitirmişdi. Kənd təsərrüfatı iqtisadiyyatından dissertasiya müdafiə edib elmlər namizədi alimlik dərəcəsi, dosent rütbəsi almışdı. Yüksək ixtisaslı mütəxəssis kimi Azərbaycan KP MK-da Kənd Təsərrüfatı Şöbəsi müdirinin müavini, sonra isə uzun illər “Azərittifaq” -ın sədri vəzifələrində işləyərək, yenidən Universitetə -müəllimlik fəaliyyətinə qayıtmışdı. Əsas iş yerinin Universitetin iqtisadiyyat kafedrasında olmasına baxmayaraq, Veteranlar Təşkilatının aparıcı qüvvəsi və dayağı idi. Burada 20 ildən artıq idiki işləyirdi. Mənim buraya işə gəlməyim Çingiz



müəllimin yükünü yüngülləşdirdi. Uzun illərin tanışlığı, birgə fəaliyyətimizdə dostluğa, sonra da ailəvi dostluğa çevrildi. O, veteranların hüquq, sosial və əmək qayğıları, mən isə gənclərin vətənpərvərlik və hərbi vətənpərvərlik tərbiyəsi, beynəlxalq əlaqələr və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tədbirlərin hazırlanması və həyata keçirilməsi ilə məşğul olduq. Bu tədbirlər Təşkilatın İdarə aparatının və daimi komissiyalarının işlərinin təkmilləşdirilməsi və gücləndirilməsi ilə həyata keçirilən çoxsaylı elmi-praktik konfranslarda, seminar-müşavirələrdə, veteranlarla və gənclərlə görüşlərimizdə, Böyük Vətən müharibəsi dövründə Azərbaycanın milli diviziyalarının keçdikləri yollardakı ölkələrin-Rusiyanın, Ukraynanın, Belorusun, Serbiyanın, Sloveniyanın veteran təşkilatlarına qarşılıqlı səfərlərdə və Böyük Vətən müharibəsi veteranlarının Ümumrespublika toplantısında reallaşdırıldılar.

Təşkilatın əməkdaşları Adil Babaşov, Telman Babayev, Vüsalə Cəfərli, Azər İsmayılov, Mənsurə Yusifova, İradə Əlizadə, Vyaçeslav Əhmədov, Əliş Əliyev, Milli Elmlər Akademiyasının, Xəzər Gəmiçiliyinin və Daxili İşlər Nazirliyinin Veteranlar Təşkilatlarının rəhbərləri Rafiq Qasımov, Mütəllim Rəcəbov, Kərim Məmmədəlizadə, Ramiz Axundov, “Leninqrad Blokadası” Veteranlar Təşkilatının sədri İrina Qədimova, Mədəniyyət Nazirliyi “Salnamə” kinostudiyasının direktoru Tahir Əliyev, Rusiya Mədəniyyət mərkəzinin əməkdaşı Səfər Babayev, Rus İcmasının rəhbəri, Milli Məclisin deputatı Mixail Zabelin, yazıçı-publisist Georgi Zapletin, Naxçıvan Muxtar Respublikası Veteranlar Təşkilatının sədri Qara Fərzəliyev, şəhər və rayon təşkilatlarının sədrləri Leyla Qasımzadə, Tofiq Hüseynov, Azad Əsədov, Telman Hətəmov, Qələmşah Babayev, Zülfəli Əliyev, Hüseyn Həsənov, Nurulla Nuruyev, Nüsrət İbrahimov, Əliheydər Əsədov, Cəmaləddin Zeynalov, Yəhya Ağayev və başqaları adlarını çəkdiyim və çəkə bilmədiyim tədbirlərin ən fəal təşkilatçıları və iştirakçıları idilər.

Veteranlar Təşkilatının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı gördüyü ardıcıl tədbirlərin təşkili barədə isə ətraflı danışmaq istəyirəm.

2010-cu il idi. Erməni quldurlarının növbəti dəfə Azərbaycan torpaqlarını işğal etməsi, xalqımızın başına olmazın müsibətlər gətirməsi siyasətinin başlanmasından 11 ildən artıq bir vaxt keçirdi. Qərara gəldik ki, veteranlarımızın bu barədə narahatlığını üzvü olduğumuz Beynəlxalq təşkilatlara çatdıraq, onlardan dəstək alaq. Məsələni 06 oktyabr 2010-cu ildə Respublika veteran fəallarının yığıncağına çıxardıq. Yığıncaq MDB ölkələri Veteran Təşkilatlarını Əlaqələndirmə Şurasına və Ümumdünya Veteranlar Federasiyasına Bəyanat qəbul etdi. Bəyanatda mövcud vəziyyət göstərilmiş, adları çəkilən təşkilatlardan xahiş edilmişdi ki, azərbaycan veteranlarının haqq səsinə qoşulub, onu müdafiə etsinlər. Bu Veteranlar Təşkilatının Sədri Əlövsət Baxışov Moskvaya, Əlaqələndirmə Şurasının iclasına getmişdir. Müzakirə zamanı aydın olmuşdu ki, Əlaqələndirmə Şurasının məsələyə münasibəti bununla məşğul olan ATƏT-in Minsk qrupu həmsədrlərinin mövqeyindən heç nə ilə fərqlənmir.

Eyni vəziyyətlə biz, ermənilərin güclü təsiri altında olan Ümumdünya Veteranlar Federasiyasının həmin ilin 24-26 noyabr tarixlərində Fransanın paytaxtı Paris şəhərində YUNESKO-nun mənzil qərargahında, təşkilatın yaranmasının 60 illik yubileyi çərçivəsində keçirilən “Veteranlar və müharibə qurbanları” mövzusundakı konfransda da rastlaşdıq. Tədbirə Respublikamızın Parisdəki səfirliyi vasitəsilə Prezidentimiz İlham Əliyevin təbrik məktubu və adını çəkdiyim Bəyanat göndərilmişdi. Minnətdarlıq hissi ilə qeyd edirəm ki, konfransda iştirakımızın və fəaliyyətimizin uğurlu olması üçün səfirliyimizin əməkdaşları və tərcüməçilər - Bakı universitetinin məzunları Asif və Akif qardaşları bizə hər cür qayğı göstərdilər. Konfransın nümayəndələri ənənəyə görə əvvəl Parisin məşhur memarlıq abidəsi Zəfər Tağını ziyarət edib əklil qoydular, sonra tədbir başladı.

Konfransın ilk günü qeydiyyatdan keçdiyimiz zaman məlum oldu ki, onun təşkilatçıları Prezidentimizin təbrik məktubunu çap edib yaymış, Bəyanatla məşğul olmamışlar.

Bunun səbəbini öyrənmək istədikdə müxtəlif bəhanələrlə boyun qaçırsalar da, təkidli tələbəmizdən sonra Bəyanat çap edilərək konfrans iştirakçılarına yayıldı.

Konfransın 3-cü günü mən çıxış etdim. AzərTAC-ın Parisdəki müxbiri Əskər Əliyev bu barədə “YUNESKO-da Azərbaycanla bağlı həqiqətlər səsləndirilmişdir” adlı məqaləsi ilə KİV-də ətraflı məlumat yaydı. Təəssüflər olsun ki, konfrans məsələ ilə bağlı heç bir rəsmi sənəd qəbul etmədi.

Göstərilənləri nəzərə alaraq Veteranlar Təşkilatı məsələni Böyük Vətən müharibəsi veteranlarının Ümumrespublika toplantısına çıxarmağı qərara aldı. Toplantı 2011-ci il sentyabrın 29-da keçirildi. Hitler faşizmini ittiham edən məşhur Nümberq məhkəməsinin 65 illiyi ərəfəsində keçirilən bu toplantı “İkinci Dünya müharibəsi, Nümberq prosesi və Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsi”-nə həsr edilmişdi. Respublikanın bütün bölgələrindən gəlmiş 400 nəfərdən artıq veteranın iştirak etdiyi bu toplantıda akademik İsmayıl İbrahimov məruzə, Kərim Məmmədəlizadə, İrina Qədimova, Zülfəli Əliyev, Qara Fərzəliyev və bir çox başqaları çıxış etdilər. Toplantı Respublika KİV-lərində geniş işıqlandırıldı. Toplantı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğul olan Minsk qrupu həmsədr ölkələrinin prezidentlərinə Müraciət qəbul etdi. Müraciətə heç bir münasibət bildirilmədiyinə görə toplantının keçirilməsindən 1 il sonra 2012-ci il sentyabr ayının 24-də Əlövsət Baxışovun imzası ilə həmsədr ölkələrin prezidentlərinə xatırlatma məktubu göndərdik. Məktubun surəti AzərTAC-a da göndərilmişdi. Ertəsi gun, 2012-cı il sentyabrın 25-də respublika qəzetlərində AzərTAC-ın “Veteranlar Minsk qrupu həmsədr ölkələri prezidentlərindən Müraciətlərinə cavab gözləyirlər” başlıqlı məqaləsi dərc edildi. Bundan bir neçə gün sonra Rusiya səfirliyinin əməkdaşlarından biri idarəmizə təşrif buyurdu. Əlövsət Baxışov xəstə olduğundan biz onu Çingiz Həsənovla birlikdə qəbul etdik. O, məlum, ümumi sözlərlə münaqişənin sülh yolu ilə həll edilməsi üçün Rusiyanın hərcür səy göstərməsindən danışdı. Biz məktubda göstərilən iradları bir daha ona çatdırmaq məcburiyyətində qaldıq. Digər iki ölkədən isə heç bir xəbər çıxmadı. Prezidentlərə ünvanlanmış məktubdan sonra, müharibə veteranlarının narazılıq məktubları Əlövsət Baxışovun, Çingiz Həsənovun, akademiklər İsmayıl İbrahimovun, Maqsud Əliyevin və general Bahadur Hüseynovun imzaları ilə ATƏT-in fəaliyyətdə olan sədrinə, onun Bakıdakı nümayəndəliyinə, Rusiyanın xarici işlər naziri S.Lavrova, Amerikanın dövlət katibi H.Klintona və onu əvəz etmiş C.Kerriyə də göndərildi.

2011-ci ildə Təşkilatın mətbu orqanını-“Azərbaycan Veteranı” qəzetini də yaratdıq. Redaktor tapa bilmədiyimizə görə qəzeti dövlət qeydiyyatından keçirməkdə çətinlik çəkdik.

Veteranlar Təşkilatında işlədiyim dövr, hesabat məruzələri ilə çıxış etdiyim, Təşkilatın 2013-cü il, aprel ayının 11-də keçirilən V Qurultayı və 2014-cü il yanvar ayının 28-dəki plenumu ilə də əlamətdar oldu. Qurultay növbəti dəfə İlham Əliyevin Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyini müdafiə etdi. Bu dövrdə Mustafa Nəsirovun, Bahadur Hüseynovun, Əlövsət Baxışovun, Çingiz Həsənovun 90 illik yubiley şənliklərini də qeyd etdik. Təəssüflər olsun ki, yubileylərindən az sonra, 2012-ci ildə Mustafa Nəsirov və Çingiz Həsənov, V-ci Qurultaydan sonra isə 2013-cü ildə Əlövsət Baxışov dünyalarını dəyişdilər. Mən 1 ildən artıq Təşkilatın sədri vəzifəsini yerinə yetirdim. Adı çəkilən plenumdan sonra daha 5 ay işlədim. Son iki ildə istirahət etməmişdim, üstəlik ən yaxın yoldaşlarımı itirməyim məni möhkəm sarsıltmışdı.

Məzuniyyətə çıxdım və imkan tapdım ki, dönüb arxaya baxıb, gəldiyim uzun yolda qalan izlərə bir də nəzər salam. Zəhmətim layiqincə qiymətləndirilmiş, elmi və fəxri adlarla bərabər, iki “Qırmızı Əmək Bayrağı” (1973,1976-cı illər), “Xalqlar Dostluğu” (1981), Ukrayna Müdafiə Nazirliyinin-“Şərəf nişanı” (2010) ordenləri, “Şərəfli əməyə görə” (1970), “Əməkdə fərqlənməyə görə” (1971), “Əmək veteranı” (1989), MDB Ölkələri Veteranlar Təşkilatları Koordinasiya Şurasının “Bizim Fəxrimiz” (2011) və SSRİ Xalq Təsərrüfatı Sərgisinin (1973,1976,1978 ) medalları, Azərbaycan SSR Ali Sovetinin və AHİŞ-in Rəyasət heyətlərinin, Heydər Əliyev adına Ali Hərbi Məktəbin “Fəxri Fərman”ları və s. ilə təltif edilmişəm. Qərara gəldim ki, təqaüdə getmək vaxtıdır.

2014-cü ilin iyul ayında məzuniyyətdə ikən işdən azad olunmam barədə Rəyasət heyətinə Müraciət göndərdim. İki səhifədən ibarət olan bu Müraciət, keçdiyim həyat yolum barədə bir hesabat idi. Müraciətim qəbul olundu və mənim işləmək fəaliyyətim başa çatdı. Rəyasət heyətinin qərarı ilə “Fəxri Fərman” və “Veteranların qayğıkeşi” Diplomu ilə təltif olundum. Müraciət bu sözlərlə tamamlanırdı- “indi ən böyük istəyim, nəvə və nəticələrimin qayğıları ilə məşğul olmaq, onların vətənimizin layiqli vətəndaşları olmaları üçün valideynlərinə kömək etməkdir.”

AZƏRBAYCAN VETERANI

# Milli Qəhrəman Mübariz İbrahimovun xatirəsi Biləsuvarda yad edilib

Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun doğum günü Biləsuvar rayonunda qeyd edilib.

Rayonun Əliabad kəndində, Milli Qəhrəmanın anadan olduğu evdə anım mərasimi keçirilib. Tədbirdə iştirak edən ombudsman Elmira Süleymanova Mübariz İbrahimovun doğma Vətən uğrunda böyük vətənpərvərlik hissi ilə qəhrəmanlıq göstərərək ölkəmizin tarixinə şərəfli bir səhifə yazdığını vurğulayıb. O, deyib ki, bu gün Mübarizin doğulub boya-başa çatdığı ev hər bir Azərbaycan vətəndaşı üçün qəhrəmanlıq ocağı hesab edilir. Onun kimi qeyrətli oğulları olan Vətən mütləq qələbə qazanacaq.

Ombudsman Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şəhid ailələrinə göstərdikləri diqqət və qayğıdan danışıb, bu yaxınlarda onlarla keçirdikləri görüşü xatırladıb.

Sonra Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı, rayon Ağsaqqallar Şurasının sədri, Gənclər və İdman İdarəsinin rəisi, şəhid ailələrinin üzvləri və müharibə veteranları çıxış edərək Mübariz İbrahimovun qəhrəmanlığından bəhs ediblər.

Milli Qəhrəmanın atası Mübarizin adını hər zaman yüksək tutan Azərbaycanın Prezidentinə, birinci xanıma, bütün xalqımıza təşəkkürünü bildirib.

Sonra insan hüquqları üzrə müvəkkil, Ombudsman Aparatının əməkdaşları və




Liderlik Məktəbinin üzvləri Milli Qəhrəman Mübariz İbrahimov adına Biləsuvar Təhsil Kompleksində olublar. Təhsil Kompleksinin akt zalında Mübariz İbrahimovun doğum günü ilə bağlı uşaqlar tərəfindən vətənpərvərlik mövzusunda tamaşalar nümayiş olunub. Tədbirlərdə Liderlik Məktəbinin üzvləri çıxış edərək özlərinin yazdıqları, Mübarizin qəhrəmanlıq həyatına və şücaətinə həsr olunmuş şeirləri söyləyiblər.

# Günnüt əməliyyatı zamanı şəhidlik zirvəsinə ucalmış əsgər Adil Tatarovun xatirəsi doğulduğu kənddə qeyd edilib




Ötən ilin mayında Naxçıvandakı Əlahiddə Ümumqoşun Ordunun uğurlu döyüş əməliyyatı zamanı şəhidlik zirvəsinə ucalmış Azərbaycan Ordusunun əsgəri Adil Tatarovun 20 yaşının tamam olması münasibətilə doğulduğu Ağstafa rayonunun Qıraq Kəsəmən kəndində silsilə tədbirlər keçirilib.

Tədbirlərdə Müdafiə Nazirliyinin, Ağstafa Rayon İcra Hakimiyyətinin rəsmiləri, rayon ictimaiyyətinin nümayəndələri, müharibə veteranları, hərbi qulluqçular, kənd sakinləri, şəhidin təhsil aldığı kənd tam orta məktəbinin müəllim və şagirdləri, ailə üzvləri iştirak ediblər.

Əvvəlcə Azərbaycanın ərazi bütövlüyünün qorunmasında göstərdiyi şəxsi igidlik və şücaətə görə "Vətən Uğrunda", "Şücaətə görə" medalları ilə təltif olunmuş igid əsgərin məzarı və kənd şəhidlərinin xatirəsinə ucaldılmış abidə ziyarət edilib, önünə qırmızı qərənfillər düzülüb.

Qıraq Kəsəmən kənd tam orta məktəbində keçirilən mərasimdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dövlət himni ifa olunub.

Çıxış edən müəllim Turan Yaqubbəyov bildirib ki, bu kəndin gəncləri tarixboyu hərbi peşələrə böyük maraq göstərib, Vətənə, dövlətə, xalqa sədaqətlə xidmət ediblər. Yüz il öncə onlarla gənc könüllü olaraq Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun, eləcə də Qafqaz İslam Ordusunun sıralarına qoşularaq Bakıda, Qarabağda erməni daşnaklarına və bolşeviklərə qarşı müharibədə əsl qəhrəmanlıq nümunələri göstəriblər. Böyük Vətən müharibəsi illərində qəhrəmanlıq ənənələri ilə seçilən Qıraq Kəsəmən kəndinin neçə-neçə igid oğlu faşizm üzərində qələbənin qazanılmasında canlarından, qanlarından keçərək Vətən tarixinə şanlı səhifələr yazıblar.

Ötən əsrin sonlarından başlayaraq bu günə kimi qıraqkəsəmənlilər Qarabağ uğrunda döyüşdə fəal iştirak edərək Vətən qarşısında əsgəri borclarını şərəflə yerinə yetirilər. Kəndin 7 yetirməsi Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olub. Onlardan biri də əsgər Adil Tatarovdur.

Diqqətə çatdırılıb ki, əsgər A.Tatarov yaşasaydı, onun 20 yaşı tamam olacaqdı. Ancaq o, elə bu yaşda mübariz gənc kimi xatirələrdə, ürəklərdə yaşayacaq, gələcək nəsillərə nümunə olacaq.

Müdafiə nazirinin tapşırığına əsasən, tədbirdə iştirak etmək üçün Ağstafa rayonuna ezam edilmiş Əməkdar incəsənət xadimi, Prezidentin fəxri təqaüdçüsü, polkovnik Abdulla Qurbani tədbir iştirakçılarını salamladıqdan sonra vurğulayıb ki, fevralın 1-də Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı, ertəsi gün isə Azərbaycan Ordusu gənclərinin ümumrespublika toplantısı keçirildi. Hər iki toplantıda şəhidlərimizin xatirəsi dərin ehtiramla yad edildi.

Qeyd olunub ki, dövlətimizin başçısı şəhid ailələrinə həmişə ali diqqət və qayğı göstərir, onların bütün problemləri vaxtında müsbət həllini tapır. Təkcə son bir ay ərzində şəxsən Prezident İlham Əliyevin iştirakı ilə bir neçə respublika səviyyəli tədbir reallaşıb, sərəncamlar verilib. Bütün şəhid ailələri kimi, əsgər Adil Tatarovun da ailəsi daim diqqət mərkəzindədir.

Uğurlu Naxçıvan əməliyyatından bəhs edilərkən diqqətə çatdırılıb ki, son illər həm dövlətimizin, həm xalqımızın, həm də Azərbaycan Ordusunun həyatında bir çox əlamətdar hadisələr olub. Məhz Günnüt zəfəri 2016-cı il Aprel zəfərinin davamıdır. Bu uğurlu əməliyyatlar dövlətimizin iqtisadi gücünü, ordumuzun qüdrətini, peşəkarlığını, işğal altındakı torpaqları azad etməyə hər an hazır və qadir olduqlarını, xalqın həyat tərzinin xeyli yaxşılaşdığını, xalqın ordumuza inamını və ordumuza həmişə arxa-dayaq olduğunu göstərir. Şəhid Adil Tatarovun iştirakçısı olduğu uğurlu əməliyyat zamanı uzun illərdir düşmən əsarətində və nəzarətində qalan strateji yüksəkliklər azad edilib, 11 min hektardan çox ərazi nəzarətə götürülüb. Bu, düşmənə böyük sarsıdıcı zərbədir. Təcavüzkar Ermənistan Azərbaycan Ordusunun bu qələbəsindən sonra hələ də özünə gələ bilmir.

A.Qurbani bildirib ki, Prezident İlham Əliyev Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında da Azərbaycan Ordusunun xidmətlərini yüksək qiymətləndirdi və böyük inamla "Azərbaycan əsgəri, zabiti Vətən uğrunda, torpaq uğrunda canından keçməyə hazırdır", - dedi. Bu, həqiqətən də belədir. Azərbaycan əsgəri torpaqlarımızı düşmən əsarətindən xilas etmək, bayrağımızı Xankəndi, Şuşa, Laçında və digər əzəli yurd yerlərimizdə dalğalandırmaq arzusu ilə yaşayır.

Azərbaycan Yazıçılar Birliyinin Qazax zona filialının sədri, Əməkdar incəsənət xadimi Barat Vüsal şəhidlərin xatirəsinə göstərilən ehtiramı düşmənə maddi və mənəvi cəhətdən vurulan sarsıdıcı zərbə kimi dəyərləndirib. O, bildirib ki, şəhidin adı əziz tutulmasa, xatirəsi yad edilməsə, adı əbədiləşdirilməsə, döyüşlərdə sağlamlığını itirənlər, şəhid ailələri dövlət səviyyəsində hər cür qayğı ilə əhatə olunmasa, Vətən uğrunda canlarından keçməyə hazır olan igid oğullar yetişdirmək mümkün deyil. Bu iş ölkəmizdə prioritetdir və Azərbaycan bu istiqamətdə bütün ölkələrə örnək ola bilər.

Şair Barat Vüsalın "Mən ayağa qalxacam, yarama torpaq tökün" misraları ilə tamamlanan şeiri alqışlarla qarşılanıb.

Ağstafa Rayon İcra Hakimiyyətinin nümayəndəsi Əziz Məsmalıyev, rayon təhsil şöbəsinin işçisi, yazıçı-publisist Əli Cəfəroğlu, Azərbaycan Yazıçılar Birliyinin nümayəndəsi, Aprel şəhidləri haqqında bir neçə kitabın müəllifi Güləmail Murad, müharibə iştirakçısı Mirzabit Hacıyev çıxış edərək şəhidliyin ən uca zirvə olmasından danışıb, şəhidlərimizin qisasını layiqincə alan Azərbaycan Ordusunun güc və qüdrətindən qürur duyduqlarını deyiblər.

Məktəbin direktoru Oruc Hüseynov, şəhidin müəllimlərindən Vüqar Vəliyev, Bəxtiyar Babayev, İzzət Məmmədov sevimli və unudulmaz şagirdləri haqqında xatirələrini tədbir iştirakçıları ilə bölüşüblər.

Şagirdlər şəhidlərə həsr olunmuş şeirlər söylədikdən sonra "Günnüt zəfəri" adlı videoçarx nümayiş olunub.

Gəncə qarnizonu Zabitlər Evinin təşviqat dəstəsi tədbirlər müddətində səyyar xidmətlər göstərib.

Polkovnik Abdulla Qurbani Müdafiə Nazirliyinin adından məktəbin kitabxanasına hərbi vətənpərvərlik mövzusunda yüzdən artıq kitab və albom bağışlayıb.

Sonra şəhidin atası Əli Tatarov bütün şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident xanım Mehriban Əliyevaya, Müdafiə Nazirliyinin rəhbərliyinə və tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

# Ветеран ВОВ, летчик Дамат Набиев: «Просто мы всегда верили в победу»

Дамат Меджид оглу Набиев – один из тех азербайджанцев-патриотов, кто во время Великой Отечественной войны 1941-1945 годов добровольно ушел на фронт защищать родину.

Он летал на военном бомбардировщике, участвовал в освобождении Варшавы, в боях за Лодзь, Краков, Познань, закончил войну в Берлине в мае 1945-го.

Родом Дамат Набиев из села Варвара Евлахского района Азербайджана. На войну попал



добровольцем в феврале 1943 года. На тот момент ему было всего 17 лет.

«15 февраля 1943 года я записался в армию. Родина была в опасности, и мы все должны были встать на ее защиту. Нас направили в резервный полк в Сумгайыт. Не прошло и месяца, как двоих из нас выбрали для прохождения учебы в авиационной школе в Грузии. Одним из них оказался



я», - вспоминает Дамат Меджидович.

«Времени было мало, и курсы были ускоренные. Нас учили практике военного дела, без теории», - говорит он в интервью газете «Азербайджанский ветеран».

Выпускник курса, Дамат Набиев был направлен на 1-й Белорусский фронт и зачислен в 221-ю бомбардировочную Бахманскую авиадивизию. Бомбардировщик, на котором довелось летать нашему герою, мог перевозить на себе три тонны боеголовок.

В боях за Варшаву, во время своего седьмого вылета, самолет Дамата Набиева был подстрелен, двигатель был поврежден, и экипажу пришлось совершить вынужденное приземление в районе города Вислы. Благодаря тому, что эта территория была безопасна, удалось спастись.

«Освобождение Варшавы далось нелегко. Это был самый страшный бой, - вспоминает ветеран. - Для защиты своих позиций в Варшаве фашисты установили три ряда зенитных артиллерийских установок».

После Варшавы предстояли бои в Лодзи, Кракове, Познани, а затем – и в Берлине. По словам Дамата Набиева, в конце апреля 1945 года советские войска заняли окрестности Берлина. В лесах вокруг немецкой столицы было размещено много немецкой бронетехники.

«Нам дали приказ с воздуха обеспечить доступ к Берлину пехотным соединениям. Я воевал до самой победы. Многие мои друзья погибли, многие были ранены. Я тоже получил ранение в грудь и в голову во время прыжка с парашютом. Сам не знаю, как остался жив», - говорит он.

«Просто мы всегда верили в победу», - с душой добавляет он.

Пережил войну и друг Дамата Набиева – Ренат Исабаев из Казахстана. Каждый год на 9 мая друзья поздравляли друг друга с Победой. Но в январе 2016-го Рената Исабаева не стало.

«За время военной службы у меня появилось много друзей. Но с каждым годом их становится все меньше», - с грустью отмечает наш герой.

После окончания Великой Отечественной войны Дамат Набиев еще год провел в Германии. До 1946 года его полк был дислоцирован в городе Фалькенберг, после чего перевезен на аэродром в Запорожье (Украина), а через год расформирован. После этого еще три года прослужил на авиационной базе в городе



Пушкино, под Санкт-Петербургом, в подчинении Училища инструментальной разведки.

С летной работы Дамат Набиев был снят в 1949-м по состоянию здоровья, однако после этого еще долгие годы





служил в Бакинском округе ПВО. Уволился с военной службы в 1973 году в должности заместителя командира полка.

В марте 2017 года Дамат Набиев был награжден в посольстве Российской Федерации памятным нагрудным знаком.

После ухода с военной службы Дамат Набиев продолжал заниматься военной подготовкой молодежи в Гяндже, а затем и в Баку, куда семья ветерана перебралась в 2002-м. Сегодня, в возрасте 94 лет, он продолжает общаться со школьниками и студентами, проводя работу по патриотическому воспитанию.

Быть свидетелем разрешения нагорно-карабахского конфликта – об этом сегодня мечтает наш герой. «Я мечтаю об одном – увидеть своими глазами освобожденный от оккупации Карабах. Надеюсь дожить до этих счастливых дней», - говорит он.

Елена Остапенко, И.А.
Материал подготовлен на основе интервью с Д.Набиевым, а также информации, предоставленной Обществом ветеранов и материалов из открытых источников.

## Salamon adaları yaxınlığında Yaponiyanın İkinci Dünya müharibəsi zamanı batırılan gəmisi tapılıb



ABŞ tədqiqat qrupu tərəfindən Salamon adaları yaxınlığında, təqribən 1000 metr dərinlikdə Yaponiyanın İmperator donanmasına məxsus "Hiey" xətt gəmisi aşkar edilib. Gəmi 1942-ci ildə Sakit okeanın cənubunda Quadalkanal uğrunda döyüşlər zamanı batırılıb.

AZƏRTAC xəbər verir ki, fevralın 6-da NHK telekanalı tədqiqatçılar tərəfindən gəminin tapıldığı ərazidə xüsusi avadanlıq vasitəsilə aparılan videoçəkilişləri nümayiş etdirib.

Videoyazıda gəminin yanı üstə düşdüyü, nəhəng vintləri və zenit toplarının lülələri aydın görünür.

"Hiey" linkoru 1914-cü ildə inşa edilib. Müasirləşdirmə məqsədilə aparılan dəyişikliklərdən sonra bu gəmi Pörl-Harbor uğrunda döyüşlərdə iştirak edib.

Vüqar Ağayev
AZƏRTAC-ın xüsusi müxbiri
Tokio

## Qara dənizdə İkinci Dünya müharibəsinə aid sualtı gəmi tapılıb



İstanbulun Şile bölgəsində yerləşən Ağva sahillərindən təxminən 4 kilometr aralıqda, Qara dənizin 40 metr dərinliyində İkinci Dünya müharibəsi zamanı batmış Almaniyaya məxsus "U23" sualtı gəmi tapılıb.

AZƏRTAC xəbər verir ki, gəmi Türkiyənin Dəniz Qüvvələri Komandanlığı ilə "TRT"nin birgə "Mavi tutqu" sənədli filminin sualtı çəkilişləri zamanı aşkar edilib.



Günel Məlikova
AZƏRTAC-ın xüsusi müxbiri
İstanbul

## Sankt-Peterburqda blokada dövrünə dair film çəkiləcək



Sankt-Peterburqda şəhərin İkinci Dünya müharibəsi dövründə S.M.Kirov adına Opera və Balet Teatrı (1935-1992-ci illərdə Mariya Teatrı belə adlanırdı) artistlərinin həyatı haqqında film çəkiləcək.

AZƏRTAC TASS agentliyinə istinadla xəbər verir ki, filmin rejissoru Svetlana Nikolayenko ekran əsərinin çəkilişlərinin bu ilin sonunadək başa çatdırılmasının planlaşdırıldığını bildirib.

O deyib: "Əgər maliyyə ilə bağlı məsələlər qaydasında olarsa, filmin bu ilin payızında buraxılışı nəzərdə tutulur. Yaradıcı komandanın 2016-cı ildən ssenarisi üzərində işlədiyi film "Leninqrad süitası" adlanacaq. Film özündə bir neçə janrı birləşdirəcək. Filmdə bədii istiqamətlə yanaşı, sənədli istiqamət də yer alacaq. Leninqrad blokadasının şahidləri, bu hadisələri öz gözləri ilə görən insanlarla müsahibələri də filmdə nümayiş etdiriləcək".

Rejissor, həmçinin kinolentin çəkilişlərinin Sankt-Peterburq və Vıborqda reallaşacağını bildirib. "Bizim filmdə gənc sankt-peterburqlu aktyorlar yer alacaq. Bu, Peterburq teatrlarından olan insanlardır. Əlbəttə ki, müvəffəqiyyətə nail olmaq üçün biz çoxlu məşq edirik. Filmə ssenarini gənc müəllif Yeqor Şilov yazıb", - deyə o bildirib.

S.Nikolayenko qeyd edib ki, müəlliflər layihənin həyata keçməsi üçün hazırda kraudfandinq (xalq maliyyələşməsi) platforması əsasında vəsait toplayırlar: "İnsanlar bu ideyanı çox bəyəniblər və bizi daha çox dəstəkləyirlər. Kinematoqrafçılar ümidvardırlar ki, bu ekran əsəri müntəzəm olaraq gənc rejissorların müstəqil filmlərini nümayiş etdirən Sankt-Peterburq və Moskva kinoteatrlarında göstəriləcək".

## "Qızıl qartal" mükafatı sahibinin adı açıqlanıb



Rejissor Aleksey Fedorçenkonun "Annanın müharibəsi" filmi "Ən yaxşı film" nominasiyasında "Qızıl qartal" mükafatını qazanıb.

AZƏRTAC TASS informasiya agentliyinə istinadən xəbər verir ki, A.Fedorçenko ən yaxşı rejissor işinə görə də mükafata layiq görülüb.

Film İkinci Dünya müharibəsi illərindən bəhs edir.

Qeyd edək ki, "Qızıl qartal" mükafatı 2002-ci ildən verilir.

**Əziz oxucular, "Azərbaycan Veteranı" qəzeti üçün abunə yazıla bilərsiniz!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Azərbaycan Beynəlxalq Bankı ASC-nin Səbail filalı**
**Hesab nömrəsi AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN, 1 illik abunə haqqı - 15 AZN**

**Qeyd: Əziz və hörmətli oxucular, "Azərbaycan Veteranı" qəzetinə abunə olmaq üçün "Azərmətbuatyayımı" ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**
**Əlaqə telefonları: (012) 440- 21-08 (012) 497- 63-58 (111)**

### Allah rəhmət eləsin

*Respublika Veteranlar Təşkilatı və Tərtər rayonu Veteranlar Təşkilatı II Dünya müharibəsi iştirakçısı **Bürgəliyev Cavanşir Talıb oğlunun** vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.*

*Respublika Veteranlar Təşkilatı və İsmayıllı rayon Veteranlar Təşkilatı II Dünya müharibəsi iştirakçısı **Aslanov Həsənalı İsmayıl oğlunun** vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.*

*Respublika Veteranlar Təşkilatı və Bakı şəhər Nizami rayon Veteranlar Təşkilatı II Dünya müharibəsi iştirakçısı **Məmmədov Abbas İbrahim oğlunun** vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.*

*Respublika Veteranlar Təşkilatı və Astara rayon Veteranlar Təşkilatı II Dünya müharibəsi iştirakçısı **Həsənov Osman Baxşəli oğlunun** vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.*

*Respublika Veteranlar Təşkilatı və Binəqədi rayon Veteranlar Təşkilatı Binəqədi rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun atası **Şahmar İsgəndərovun** vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.*

*Respublika Veteranlar Təşkilatı və Nərimanov rayon Veteranlar Təşkilatı II Dünya müharibəsi iştirakçısı **Hüseynov Mirzəxan Həsən oğlunun** vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.*

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*

*Məsul katib*
*Şəhla QARAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:** 1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaveroçkin küçəsi, 34*
***Əlaqə telefonu:** 012 440-21-08*
***e-mail:** az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi** - 3486*
***Dövlət qeydiyyat tarixi** - 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 60 qəpik*
*Tiraj: 1290*